# Beynəlxalq Türk Akademiyası Elmi Şurasının 6-cı iclası

## İclasda iştirak edən elm və təhsil nazirinin müavini səfər çərçivəsində bir sıra görüşlər keçirib






Elm və təhsil nazirinin müavini İdris İsayev Qırğız Respublikasının Bişkek şəhərində təşkil olunmuş Beynəlxalq Türk Akademiyası Elmi Şurasının 6-cı iclasında iştirak edib.

İclasda çıxış edən nazir müavini Beynəlxalq Türk Akademiyasının dəstəyi ilə həyata keçirilən fəaliyyətlərin üzv ölkələr arasında təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinə verdiyi töhfəni yüksək qiymətləndirib. İdris İsayev türk dövlətləri arasında şagird və müəllim mübadiləsinin, habelə ortaq dərsliklərin hazırlanmasının önəmini qeyd edib.

Beynəlxalq Türk Akademiyası Elmi Şurasının 6-cı iclası çərçivəsində İdris İsayev Qırğız Respublikasının təhsil və elm naziri Kanibek İmanaliyev ilə də görüşüb. Görüş zamanı ölkələrimiz arasında təhsil sahəsində mövcud əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, qarşılıqlı maraq kəsb edən istiqamətlər üzrə təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb.

Nazir müavini həmçinin Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev ilə görüşüb. Görüşdə Elm və Təhsil Nazirliyi ilə Beynəlxalq Türk Akademiyası arasında birgə əməkdaşlıq məsələləri müzakirə olunub.

### Nazir müavini Qırğız Respublikasında Azərbaycan məktəblərini ziyarət edib

Qırğız Respublikasında səfərdə olan elm və təhsil nazirinin müavini İdris İsayev martın 29-da Bişkek şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına 20 nömrəli Məktəb-Gimnaziya Kompleksini və Nizami Gəncəvi adına 103 nömrəli məktəbi ziyarət edib.

Nazir müavini sözügedən təhsil müəssisələrində yaradılmış şəraitlə tanış olub, müəllim-şagird heyəti ilə görüşüb. Ziyarət zamanı hər iki təhsil müəssisəsinin bir qrup şagird heyətinin ötən ilin dekabr ayında ölkəmizə səfər etməsi qeyd olunub.

İdris İsayev iki ölkənin ümumi təhsil müəssisələri arasında əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə dair əminliyini ifadə edib.